# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

# MƏRKƏZİ ELMİ KİTABXANA

# H E S A B A T

***27 sentyabr 2015 – 27 sentyabr 2016***

**Bakı - 2016**

## STRATEJİ HƏDƏFLƏR

***Yaxın tarixə ekskurs:*** *2015-ci ilin sentyabr ayında MEK-in açılış tədbirində iştirakçıların diqqətinə MEK-in 9 ay ərzində atdığı addımlar və əldə etdiyi nəticələr yığcam tezis formasında çatdırıldı:*

*Cəmi 7 aya kitabxana fondları əsas binadan yeni binaya köçürüldü və 3 aya istifadəçilərin xidmətinə hazırlandı; sentyabr ayının 30-u MEK kitabxana xidmətinə başladı; yeni Nizamnamə və Struktur hazırlandı; Kitabxana-Xidmət şöbəsinin Əsasnaməsi və Vəzifə öhdəlikləri hazırlandı və tətbiqinə başlanıldı; MEK tərkibində İnformasiya Resursları Mərkəzi yaradıldı; işə qəbul üzrə test sistemi hazırlandı və tətbiq olundu; Milli Rəqəmsal Yaddaş (MRY) layihəsi başlandı; Vahid İdarəetmə Sisteminin (VİS) "Kitab" və "İstifadəçilər" komponentlərinin birinci qeydiyyat modulları istifadəyə verildi; daxil olan informasiya vahidlərinin konveyer üsulu ilə emalı başlandı; yeni konsepsiyalı 2 dilli dinamik sayt yaradıldı; daim yenilənən Facebook səhifəsi yaradıldı; özündə elmi mənbələri cəm edən böyük sayda xarici e-resurslar açıq istifadəyə verildi; MEK fondları müxtəlif kolleksiyalar və çağdaş ədəbiyyat ilə zənginləşdirildi; könüllülər qrupu Vikipediyada 2000-dən artıq redaktə gedişatı etdi; sosial yönümlü proqramlar həyata keçirildi.*

**2015-ci ilin oktyabr ayında Mərkəzi Elmi Kitabxananın İdarə Heyəti növbəti dörd il üçün (2016 – 2019) məram və 5 əsas hədəf müəyyən etdi:**

**MEK-in məramı** Azərbaycanın qədim tarixinin və zəngin mədəniyyətinin, Azərbaycan Respublikasının müstəqillik illərində qazanılmış siyasi, iqtisadi, sosial və mədəni nailiyyətlərinin təbliğ edilməsi, Azərbaycan dilinin informasiya resurslarında istifadə imkanlarının genişləndirilməsi, müasir elmi araşdırmaların aparılması üçün informasiya təminatının yaxşılaşdırılması, Azərbaycanın milli-tarixi irsini təşkil edən və yeni yaranan bütün növ mövcud informasiya vahidlərinin toplanılıb saxlanılması, eləcə də dünya tarixi və mədəniyyətinin istifadəçilərə təqdim olunması yolu ilə oxucu icmasını formalaşdırmaq və akademik icmanın mərkəzinə çevrilməkdir.

**Strateji hədəflər:**

1.VİS (Vahid İdarəetmə Sistemi) platformasının bütün komponentlərinin (kitab, oxucu, yazışma, sənədləşmə, maliyyə, insan resursları) tam hazırlanıb istifadəyə verilməsi.

2. Milli Rəqəmsal Yaddaşın qeydiyyat, rəqəmsallaşdırma və qorunub saxlanılma proseslərinin işlək səviyyəyə gətirilməsi.

3.Peşəkar heyətin formalaşması.

4.Beynəlxalq əməkdaşlığın və ictimaiyyətlə əlaqələrin qurulması.

5. İnformasiya təhlükəsizliyinin təmin olunması.

> ***Uğursuz kitabxanalar kitab fondlarını zənginləşdirir, yaxşı kitabxanalar xidmətlər sistemi qurur, möhtəşəm kitabxanalar isə icmanı formalaşdırır.***
>
> **R.David Lankes**

Müəyyən edilmiş hədəflərə mərhələ-mərhələ addımlar atılır, paralel olaraq yeni ideya və təşəbbüslər formalaşır və MEK heyəti onları da həyata keçirir. Hesabatda əksini tapmış "İş prinsipləri", "Əldə edilmiş nəticələr", "Təşəbbüslər", "Çətinliklər", "MEK rəqəmlərdə və faktlarda" məhz bu hədəflərə aid olan, hesabat üçün qruplaşdırılmış və MEK əməkdaşlarının nöqteyi-nəzərindən əhəmiyyət kəsb edən məlumatlardır.

## İŞ PRİNSİPLƏRİ

> ***Ağıllı insanlar planlara, müdrik insanlar isə prinsiplərə dayaqlanır.***
>
> **Raheel Farooq**

**1.MEK AMEA-nın bir hissəsidir, AMEA-ya uyğun olaraq formalaşır və formalaşdırır.** Hazırda kitabxananın inkişaf sürəti və istiqaməti kitab fondlarının, oxucu sayının və ya yerləşdiyi məkanın sahəsinin artırılmasına ("**A**" səviyyəsi) deyil, addım-addım oxucuların diqqət mərkəzinə gətirə biləcəyi xüsusi xidmətlərə, müxtəlif meyarlara əsasən formalaşdırılmış sənəd toplularına ("**B**" səviyyəsi) və nəhayət, oxucu icmasının formalaşmasına yönəldilib ("**C**" səviyyəsi). Bu prinsiplə çalışmaq üçün MEK oxucu zövqünün formalaşması, cəmiyyətdə mütaliə meylinin artırılması, MEK-də saxlanılan mənbələrin araşdırılması meyllərinin artması kimi təsir imkanları üzərində çalışır, oxucu auditoriyasından könüllü tərəfdaşlar (vikipediyaçılar, açıq mütaliə tərəfdarları, kitab fondlarının formalaşmasında iştirak edən ziyalılar, araşdırıcılar və s.) formalaşdırır.

**2.İnformasiyanın və xidmətlərin bütün istifadəçilər üçün əlçatar olması.** MEK bir il ərzində fəaliyyətini mandatına uyğun olaraq akademik ictimaiyyət də daxil olmaqla bütün kitabxana istifadəçiləri ilə interaktiv qarşılıqlı anlaşma əsasında qurub, oxucuların tələblərinə və ehtiyaclarına köklənmiş müasir şəkildə, AMEA Rəyasət Heyətindən başlayaraq tələbə istifadəçilərə qədər bütün sorğuları dərhal araşdırıb və cavablandırıb. MEK 18 yaşına çatmış bütün Azərbaycan vətəndaşları üçün açıqdır.

**3.Şəffaflıq və hesabatlılıq.** Kitabxanaya daxil olan hər bir sənəd dərhal aktlaşdırılır, MEK saytında yerləşdirilir, MEK barəsində bütün məlumatlar saytda, sosial şəbəkələrdə, sosial kanallarda açılmış səhifədə və mediada əks olunur.

**4.Peşəkarlıq və operativlik.** İstifadəçilərə daha operativ və yüksək keyfiyyətli xidmətin təmin edilməsi məqsədilə MEK əməkdaşları informasiya təminatının müasir metodlarını və istiqamətlərini daim araşdırır, eyni zamanda peşəkarlıqlarını həm fərdi, həm də ümumi komanda şəklində mütəmadi olaraq artırırlar.

**5.Qənaətçillik.**

## ƏLDƏ EDİLMİŞ NƏTİCƏLƏR

**1.VİS proqramının kitabxana üçün ilk növbədə əhəmiyyətli komponentləri hazırlanıb istifadəyə verilib.**

VİS – müəssisənin bütün mümkün proseslərinin avtomatlaşdırılması, inteqrasiyası, nəzarətdə saxlanılması və mərkəzləşdirilmiş şəkildə idarəedilməsi sistemidir. VİS ilk dəfə məhz MEK-in proqram və texniki tələblərinə uyğun olaraq yerli proqram mühəndislərinin iştirakı ilə hazırlanmış platformadır.

<u>VİS-LİB – MEK Kitabxana xidmətlərinin avtomatlaşdırılmış idarəetmə və nəzarət platformasıdır və aşağıdakı modulları istifadəyə verilib</u>: "Komplektləşdirmə modulu", "Kataloqlaşdırma modulu", "Fondlarda resursların yerləşdirilməsi modulu", "İstifadəçilərin qeydiyyatı modulu", "Sifarişlərin verilməsi modulu", "Resursların axtarışı modulu", "Proseslərə nəzarət modulu", "Hesabatların hazırlanması modulu". VİS-HR MEK-in strukturunda olan bütün işçi heyətin nəzarət və idarəedilməsi platformasıdır, "Təşkilati strukturun idarə edilməsi modulu" və "Davamiyyət, icazələrin alınması və nizam-intizam modulu" hazırlanıb və istifadəyə verilib.

Bu modulların sınaq prosesi Milli Rəqəmsal Yaddaş şöbəsi, Proqramçılar bölməsi, Kitabxana-Xidmət şöbəsi və İnsan resursları bölməsi əməkdaşlarının sıx və qarşılıqlı məsləhətləşmələri rejimində sınaqdan keçirilir. MEK-ə daxil olan istənilən subyekt və obyekt VİS-in aidiyyatlı modulunda əks olunur. Qalan modulların hazırlanması prosesinə başlanılıb.

**2.Milli Rəqəmsal Yaddaş üzrə praktik fəaliyyət başlayıb.** Müasirləşmiş kitabxanamızın proqram və informasiya təminatı üzərində çalışdığı layihələrdən biri MRY layihəsidir. Layihənin məqsədi Azərbaycanda və Azərbaycanın hüdudlarından kənarda Azərbaycana aid olan informasiyanı toplayıb, sistemləşdirib, rəqəmsallaşdırıb yaddaşa salmaq, mühafizə etmək, araşdırıcı, oxucu, internet istifadəçisi üçün əlçatan etmək, təhrif olunmasının qarşısını almaqdır. Geosiyasi məkanda daim təcavüzlərə məruz qalan, tarixi, mədəni irsi "pozulmaq" təhlükəsi ilə sıx üzləşməsi səbəbindən MRY layihəsi Azərbaycan üçün çox önəmlidir. Bu kateqoriyaya aid olan əhəmiyyətli sayda mənbələrin qeydiyyata salınması və rəqəmsallaşdırılması standartlar əsasında həyata keçirilir.

**3.Daxil olan informasiya vahidlərinin (sənədlərin) konveyer üsulu ilə emalı sistemi qurulub,** nəticədə daxil olan istənilən sənəd VİS proqramının yeni yaradılmış MEK Kitabxana xidmətlərinin avtomatlaşdırılmış idarəetmə və nəzarət platformasında qısa müddət ərzində tam elektron təsvirini alır, xüsusi kateqoriyaya aiddirsə daxil olan kimi rəqəmsallaşdırılır, MRY-a və ya başqa bazaya aid edilir, qeydiyyat yolunu keçib əsas fonda, yardımçı fondlara və ya Sərgi salonuna yerləşdirilir və oxucuların istifadəsinə verilir.

**4. Geniş çeşiddə və yeni keyfiyyətdə *e*-resurslar yaradılıb və istifadəyə verilib.** Bu resurslara MEK-in elektron kataloqu, MEK-in rəqəmsallaşdırdığı Nadir Kitab Fondu, Şərq Ədəbiyyatı Fondu, elm və incəsənət xadimlərinin MEK-də mühafizə olunan kolleksiyaları, müəllif müqaviləsinə əsasən əldə etdiyimiz rəqəmsal əsərlər, Azərbaycanda ən qədim kitabların kolleksiyası, MEK saytı və Facebook səhifəsi, eləcə də MEK-in abunə olduğu xarici elektron resurslar - EBSCO Premier,

BioOne, Edward Elgar Journals & Development Studies E-Books, IOPSCIENCE, Oxford English Dictionary, Oxford Reference Online, Royal Society Journals Collection, Landesbibliotek və başqaları – aiddir. Elektron resurslara MEK oxu zallarından çıxış təmin olunub.

**5.İctimaiyyətlə əlaqələrin və beynəlxalq əməkdaşlığın yeni sistemi qurulub.** MEK beynəlxalq və ictimaiyyətlə əlaqələrin qurulmasını və inkişafını önəmli hesab edir. MEK haqqında məlumat əlçatan, dolğun və obyektivdir. 2016-cı ildən başlayaraq 3 dildə (Azərbaycan, rus, ingilis), çevik və interaktiv rəsmi internet səhifəmiz www.mek.az, www.csl.az yaradılıb, mek.az domain-i alınıb sayta və korporativ yazışmaya istifadəyə verilib, Facebook, Twitter, VK, İnstaqram kimi sosial şəbəkələrdə səhifələr açılıb, Youtube-da rəsmi sosial kanal açılıb, Facebook səhifəmizdə təkcə MEK haqqında deyil, dünya və Azərbaycan kitabxanaları haqqında maraq doğuran məlumatlar yerləşdirilir, media nümayəndələri ilə sıx əməkdaşlıq qurulur, MEK əməkdaşları AzTV, Lider, CBC, İctimai və s. telekanallarda çıxış edir, elmi mənbələrin çıxış imkanları barədə məlumat verir, media şirkətləri tərəfindən MEK-də ictimaiyyətin marağına səbəb olan verilişlər çəkilir, MEK əməkdaşları müntəzəm olaraq kitabxana fondları barədə yeni məlumatları ictimaiyyətin diqqətinə çatdırır, MEK-in məkanı informasiya ötürücüsü kimi aktiv şəkildə istismar olunur.

**6.Kitabxana fondlarının bir hissəsi rəqəmsal formata keçirilib.** MEK fondlarında saxlanılan sənədlərin mühafizəsi və bir sənədin eyni vaxtda bir neçə istifadəçi tərəfindən oxunma imkanının təmin edilməsi məqsədilə Rəqəmsallaşdırma bölməsi əməkdaşları tərəfindən intensiv rejimdə və müəyyən edilmiş ardıcıllıq əsasında – Nadir Kitab Fondu, Şərq Ədəbiyyatı Fondu, MEK-ə daxil olan unikal nüsxələr, oxu zalına sifariş verilən unikal nüsxələr, kolleksiyalar, yubileyi keçirilən mütəfəkkirlər, tək nüsxədə olan və MEK ərazisindən rəsmi qurumların sorğusuna əsasən çıxarılan sənədlər – rəqəmsallaşdırılır və yaddaş bazasında sistemli şəkildə saxlanılır. Rəqəmsallaşdırma elektron vərəqləmə daxil olmaqla müxtəlif formatlarda həyata keçirilir.

**7. Ali təhsil müəssisələrin tələbələri və AMEA institutlarının əməkdaşları ilə təlim və təcrübə mübadiləsi həyata keçirilib.** MEK-də formalaşmış müasir təcrübənin tək kitabxanaçılıq sahəsində deyil, informasiya texnologiyaları sahəsində də tətbiq imkanları akademik müəssisələrin rəhbərləri tərəfindən qiymətləndirilmişdir. MEK-ə ünvanlanmış müraciətə əsasən adı çəkilən sahələrdə təhsil alan tələbələr, AMEA institutlarının kitabxana rəhbərləri və elmi işçilər üçün müxtəlif mövzularda təlim və təcrübə proqramı həyata keçirilmişdir. Əgər ilk mərhələdə tələbələr ilə təcrübə işinin əsas sahəsi MEK-in köçürülməsi zamanı kitabların üzərinə barkodların və e-çiplərin vurulması, siyahıya alınması, qablaşdırılması idisə, hazırda təcrübə proqramında “VİS-LİB” daxil olan resursların email modulları üzərində təcrübə, “Müasir rəqəmsallaşdırma”, “Elmi-intellektual bazanın yaradılması”, “Vikipediya”, “Vahid Qeydiyyat Sistemi” kimi mövzular daxil edilib. Təlim və məşğələlərin əsas fərqi real rejimdə olması, iş yerlərində təcrübənin keçirilməsi, təlimdən sonrakı nəzarət, təlim iştirakçılarının elmi sahələrinə uyğun çalışmalar və sərbəst elektron resurslarda real yerləşdirmələrin olmasıdır.

MEK tərəfindən AMEA-nın 21 institutunun əməkdaşlarına hər institut ilə 1 həftəlik təlim proqramı keçmək şərtilə (cəmi 140 iştirakçı) “Vikipediya” mövzusunda təlim keçirilmişdir. AMEA-nın 15 müəssisəsinin kitabxana və ya fond rəhbərlərinə ayrı-ayrılıqda (cəmi 236 iştirakçı) “Vahid

Qeydiyyat Sistemi" mövzusunda təlim keçirilmişdir. Bütün mövzular üzrə 646 nəfər iştirak etməklə 63 təlim keçirilmişdir.

**8. MEK-in fəaliyyəti beynəlxalq və yerli standartlara uyğun qurulub.**

Bütün kitabxana-informasiya prosesləri sənədlərin daxil olunmasından və qeydiyyatdan keçməsindən başlayaraq oxucuların istifadəsinə verilməsinə qədər beynəlxalq və yerli standartlara uyğun olaraq həyata keçirilir. İlk dəfə olaraq elektron resursların istifadəsinə icazə verən müəllif hüquqları müqaviləsi tətbiq olunub.

**9. MEK fondlarının zənginləşməsi** əsas hissəsində büdcə xərcləmələrinin hesabına yox, məcburi nüsxələrin, hədiyyələrin və mübadilə olunan mənbələrin hesabına baş vermişdi.

**10. Elektron kargüzarlıq qaydaları tam tətbiq olunmuşdur.**

## T Ə Ş Ə B B Ü S L Ə R

**1. "Heydər Əliyev irsi" guşəsinin yaradılması.** Ümumilli lider Heydər Əliyev irsinə aid olan və fondlarda saxlanılan ədəbiyyat Sərgi salonunda və Akademiklərin zalında yerləşdirilmişdir. Materiallar rəqəmsallaşdırılmış, elektron kataloqa, Milli Rəqəmsal Yaddaşa və video-təqdimat formatına salınmış və nümayiş etdirilmişdir.

**2. Prezident Sərəncamının icrası.** Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015 – 2020-ci illər üçün Strategiya"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Fəaliyyət planının AMEA-ya aid 9.4.2. bəndinin Qeyri-infeksion xəstəliklərə dair prioritetlər üzrə aparılan araşdırmaların nəticələrinin geniş müzakirəsi, tətbiqi və bu istiqamətdə e-resursların istifadəsi məqsədilə məlumatlandırma aparılmışdır.

**3. Prezident Sərəncamının icrasına dəstək.** Şəki şəhərində Bəxtiyar Vahabzadənin ev-muzeyinin yaradılması və yaşadığı binaya xatirə lövhəsinin vurulması haqqında Azərbaycan Respublikası Prezidentinin 27 oktyabr 2015-ci il tarixli 1475 saylı Sərəncamının icrası ilə bağlı Şəki şəhərində şairin yaşadığı evdə muzeyin təşkili məqsədilə MEK tərəfindən Mədəniyyət və Turizm Nazirliyinə rəqəmsallaşdırılmış kitablar (51 sayda, PDF formatda), kitabların xüsusi rəqəmsal formatda işlənilmiş üz qabıqları (42 kitab, JPEG formatda) və kitabların video-təqdimatı (3 dəqiqə, 22 saniyə) təhvil verilmişdir.

**4. Qanunvericiliyə islahat yönümlü təkliflər verilib.** 12 aprel 2016-cı il tarixində AMEA Mərkəzi Elmi Kitabxanasında "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 174-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrasını təmin etmək məqsədilə MEK tərəfindən irəli sürülmüş təkliflərə həsr olunmuş konfrans keçirildi. Konfransda mövcud qanuna MEK tərəfindən irəli sürülmüş əlavə və dəyişikliklərlə bağlı təkliflər səsləndirildi. Təkliflər ümumi müddəalarda yer alan əsas anlayışlara verilən təriflərə düzəlişlər,

kitabxana işi haqqında dövlət siyasətinin əsas prinsipləri və vəzifələri haqqında maddələrə yeni ifadələrin əlavə olunması, "Kitabxana sistemi" fəslində bəzi kitabxanaların statusunda dəyişikliyə dair, "Kitabxana fondu" adlı fəsildə yer alan maddələrə, eləcə də kitabxanaya vurulmuş zərərə görə məsuliyyət kateqoriyasına, kitabxana işçilərinin sosial müdafiəsi ilə bağlı maddəyə dəyişiklik, "Nəşriyyat işi haqqında qanun"a əlavə və dəyişiklikləri özündə ehtiva edir. Diqqət çəkən təkliflər sırasında "Nəşriyyat işi haqqında" Qanunun 18-ci maddəsinə kitabın buraxılış məlumatına dair Vahid Elektron Qeydiyyat-axtarış kataloqunun hazırlanması və tətbiqi məqsədi ilə biblioqrafik təsvirin mərkəzləşdirilmiş şəkildə təsnifat indeksləri daxil olmaqla universal standartlara uyğun olaraq verilməsi, təsvirin Azərbaycan, beynəlxalq və MARC 21 standartlarını özündə cəm etməsi, mərkəzi nəşriyyat portalında yerləşdirilməsi, Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən kitabxanaların mərkəzi nəşriyyat portalına çıxışının olması və portal vasitəsilə vahid elektron biblioqrafik təsvirin eksport imkanının olması oldu. Təsvirin verilməsində müəllifin və ya tərtibçinin iştirakının zəruriliyi vurğulandı, təkliflər paketinə salındı və AMEA rəhbərliyinə təqdim olundu. Bunlarla yanaşı, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Heyətinin "Dissertasiyaların AAK-a təqdim edilməsi qaydaları haqqında" 16.11.2007-cı il tarixli (protokol № 17-R) qərarına əlavələrin edilməsi, "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının fəaliyyətini tənzimləyən bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Fərmanın "Dissertasiyaların təqdim olunması və müdafiəsi haqqında" maddəsinə dəyişikliklərin edilməsi ilə bağlı təkliflər də səsləndirilib.

5. **Əməkdaşların peşə inkişafına sistemli yanaşma tətbiq olunub.** Mərkəzi Elmi Kitabxana əməkdaşların hərtərəfli peşə inkişafını diqqət mərkəzində saxlayır. İnformasiya Texnologiyaları, Beynəlxalq və İctimai Əlaqələr, İnsan resursları və İnzibati şöbələr üçün "Əsasnamə və vəzifə öhdəlikləri" hazırlanmış və istifadəyə verilmişdir, Kitabxana-Xidmət şöbəsinin bir il öncə hazırlanmış eyni adlı sənədlərinə yenidən baxılmış, cari proseslərə uyğun olaraq əlavə və düzəlişlər edilmiş, şöbə və bölmələrin əməkdaşları əsasnamə və vəzifə öhdəlikləri üzrə təlimatlandırılmış və sənədlər istifadəyə verilmişdir. Əməkdaşların müntəzəm olaraq qiymətləndirilməsi aparılır, əməyin ödənilməsi dərəcələrinə və maaşlara korreksiya verilir, əməkdaşlar kitabxana həyatında və kitabxananın inkişaf prosesində iştirakına və əldə etdikləri nailiyyətlərə görə mükafatlandırılırlar. Əməkdaşların peşə inkişafı üçün əldə edilmiş bilik və bacarıqlar "Vikipediya", "Mülki müdafiə", "Vahid Qeydiyyat Sistemi", "Elektron resurslardan (EBSCO, Thomson Reuters Web of Science, OCLC, Royal Chemistry Society) istifadə qaydaları", "Elmi-intellektual bazanın yaradılması" mövzularında MEK əməkdaşları tərəfindən kənar təşkilatlara və MEK əməkdaşları tərəfindən həmkarlarına keçirilmiş təlimlər böyük əhəmiyyət kəsb edir, təlim komandası Kitabxana-Xidmət şöbəsi, Proqramçılar bölməsi, Sərbəst elektron resurslar bölməsi əməkdaşlarından formalaşır. MEK əməkdaşlarına cəmi 224 iştirakçısı olan "Vikipediya" və "Elektron Qeydiyyat Sistemi" mövzularında 8 təlim, əməkdaşlarımıza xarici təşkilatlar tərəfindən beynəlxalq elektron resursların istifadəsinə dair cəmi 101 iştirakçının cəlb edilməsi ilə 9 təlim keçirilmiş və çox sayda təlimatlar aparılmışdır.

MEK əməkdaşlarının peşə inkişafı MEK tərəfindən kənar təşkilatlara keçirilən təlimlər zamanı cilalanır. Təlim mövzularının seçilmə prinsipi kitabxana idarəetmə sistemində əldə edilmiş texniki və proqram dəyişikliklərini Azərbaycanın elmi və mədəni irsinin təbliğatı, bu məlumatların

universal sistemləşdirmə qaydalarının tətbiqi, dünya elmi və mədəni irsinin Azərbaycan haqqında məlumatlar ilə birlikdə vahid qeydiyyat sisteminə salınması, sərbəst resursların formalaşdırılması və təbliğidir.

MEK əməkdaşları Azərbaycanda və xarici ölkələrdə keçirilən tədbirlərdə pərakəndə yox, vahid komanda şəklində, vahid strategiya və mesajlarla, vahid təqdimat üslubu ilə çıxış edir. MEK kolleksiyalarının təqdimatlarında, ekskursiyaların keçirilməsində, təlimatların verilməsində, konfranslarda çıxışlar əlaqələndirilir və mövzular uzlaşdırılır.

MEK əməkdaşlarının peşə bilik və bacarıqlarına əlavə olaraq təşəbbüsləri dəstəklənir.

**6. Əməkdaşların geniş həcmdə sosial müdafiəsi həyata keçirilib.** Səhiyyə Nazirliyinin Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi, Respublika Milli Onkologiya Mərkəzi, Respublika QİÇS Mərkəzi, İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Respublika Endokrinoloji Dispanseri, Topçubaşev adına Elmi Cərrahiyə Mərkəzi və başqa strukturları ilə əməkdaşlıq nəticəsində ödənişsiz səhiyyə xidmətləri, peşə xəstəliklərinin profilaktikası, ödənişsiz diaqnostik müayinələr – İİV-infeksiyasının, onkoloji, oftalmoloji, stomatoloji və endokrinoloji xəstəliklərin aşkarlanması üçün 1117 müayinə və konsultasiya (oftalmoloq, onkoloq, ginekoloq, mammoloq, stomatoloq, cərrah, endokrinoloq, ekspress qan analizi, qalxanvari vəzin ultrasəs müayinəsi, mammoqrafiya, göz dibinin müayinəsi, göz təzyiqinin ölçülməsi, görmə qabiliyyətinin yoxlanılması, antropoloji ölçmələr, qanda şəkərin müəyyən edilməsi və arterial təzyiqin ölçülməsi) aparılmışdır, ilkin və təcili tibbi yardım göstərilmiş, əməkdaşların iş vaxtlarına və sosial xərcləmələr büdcəsinə 20.000 AZN-dən artıq qənaət edilmiş, daimi nəzarət məqsədilə individual ambulator kartlar açılmışdır. Respublika Epidemiologiya və Gigiyena Mərkəzi ilə əməkdaşlıq nəticəsində MEK kitab fondları, oxu zalları, personal otaqlarında, ictimai iaşə yerlərində sanitar normaları təmin edilmişdir. Əməkdaşlar bazar qiymətlərindən ucuz, geniş çeşidli və sağlam qida ilə təmin edilmişdir. MEK-də hüquqi yardım xidməti çalışır, Respublika 4 saylı Hüquqi məsləhətxanasının yüksək dərəcəli hüquqşunas heyəti ilə əməkdaşlıq edilir, müəssisənin və əməkdaşların hüquqları müdafiə olunur.

**7. MEK-də "Paralel sorğu" layihəsi.** Oxucu zövqünün formalaşması və istiqamətləndirilməsi, cəmiyyətdə mütaliə meylinin artması, kitabxana fondlarının məqsədyönlü zənginləşdirilməsi funksiyası daşıyan və oxucu auditoriyasını könüllü tərəfdaşa çevirən "Paralel sorğu" layihəsi həyata keçirilmişdir. Sorğu iştirakçılarına - MEK istifadəçiləri və "Ziyalılar, nüfuzlu şəxslər" qruplarına "Son bir ildə mütaliə etdiyiniz və oxunmasını tövsiyə etdiyiniz bədii və elmi əsərlər hansılardır?" məzmununu əks etdirən iki sualla müraciət olunmuşdur. Sorğu nəticəsində iki siyahı formalaşmış, siyahılarda adı çəkilən əsərlər kitabxana fondlarında yoxdursa əldə edilmiş və MEK fondlarına daxil edilmiş, oxu zallarında, MEK saytında və Facebook səhifəsində yerləşdirilmişdir. Növbəti mərhələdə siyahılarda kəsişən adlar və əsərlər müəyyən edilmiş, müəlliflər ilə görüş planı tərtib edilmişdir (məs., yazıçı Rövşən Abdullaoğlu ilə 22 sentyabr 2016-cı il tarixində).

> ***"Yazıçının kitab rəfində az kitab olmalıdır. Cəmi 10-15. Hansılar? Bunun üçün minlərlə kitab oxumaq lazımdır".***
>
> **İsaak Babel**

**8. Kolleksiyaların təqdimatları.** MEK cəmiyyətdə mütaliə və mövcud mənbələri araşdırma meyllərinin artmasına təsir imkanları üzərində çalışır. Bu məqsədlə kitabxana fondlarında saxlanılan və tədqiqatçılara məlum olmayan mənbələrin araşdırılıb üzə çıxarılması, qruplaşdırılmış şəkildə araşdırıcıların diqqətinə kolleksiyalar şəklində təqdim olunması həyata keçirilir. Mövcud kolleksiyalara (Georq Hazai, Mirzə İbrahimov, Mikayıl Useynov, Yevgeniy Belyayev, Abbas Zamanov, Yevgeniy Paxomov, Yevgeniy Bertels, Zahid Hüseynzadə) əlavə olaraq yeni meyarlarla kolleksiyalar formalaşdırılır: elektron resurslar, 10 ən qədim kitab və s. Təqdimatlar hər həftənin cümə axşamı eyni vaxtda, personal və oxucu girişlərində, eləcə də MEK-in saytında və Facebook səhifəsində təqdimatın mövzusu və keçirilmə məkanı öncədən elan edilməklə keçirilir, tədbirdən sonra isə MEK saytında təqdimatların rəqəmsal versiyası yerləşdirilir.

> ***"Mən həmişə cənnəti kitabxana kimi təsəvvür etmişəm".***
> ***Jorge Luis Borges***

**9. "MEK-də açıq kitabxana"** layihəsi 15 iyul 2016-cı il tarixdən etibarən MEK-də fəaliyyətə başlayıb. "MEK-də Açıq Kitabxana" kimi başlayan layihəyə dünya kitabxana təcrübəsində mövcud olan, Azərbaycanda isə davamlı layihə şəklində Mədəniyyət və Turizm Nazirliyinin və M.F.Axundov adına Milli Kitabxananın təşəbbüsü ilə yaradılan "Açıq kitabxana" layihəsi "Mən oxudum, sən də oxu" devizi ilə daha bir çalar – oxucular tərəfindən də kitabxanaya kitabların gətirilməsi və mübadiləsi imkanını – əlavə etdi. Layihənin məqsədi insanları maraq doğura biləcək formatda mütaliəyə sövq etmək, kitab paylaşmaq və kitab hədiyyə etmək mədəniyyətini təbliğ etmək, kitabxana imkanlarını oxuculara yaxınlaşdırmaq, "məkan kitabxana kimi" yanaşmasını tətbiq etməkdir. Layihənin icrası MEK istifadəçilərinin ən çox biri-biri ilə təmasda olduğu internet-kafe məkanında başlanılıb. Artıq MEK-in mübadilə fondundan, əməkdaşların şəxsi kitab fondlarından, oxucular və MEK-in ziyarətçiləri tərəfindən kitablar ayrılıb və oxucuların sərbəst istifadəsinə verilib. Oxucular və əməkdaşlar "MEK – açıq kitabxana" layihəsi çərçivəsində mütaliə etdiyi kitabı kitabxanaya bağışlaya və oxumadığı kitabı aparıb oxuya bilərlər.

> ***"Mədəniyyəti məhv etmək üçün kitabları yandırmaq yox – onları sadəcə oxumamaq kifayətdir".***
> **Rey Bredberi**

**10. "Elmi-intellektual baza"nın yaradılması təşəbbüsü.** Azərbaycanın MRY bazasının AMEA MEK-də formalaşdırılıb yerləşdirilməsini və kitabxanada vahid elektron idarəedilmə sisteminin qurulmasını nəzərə alaraq, elmi tədqiqat işlərinin vahid elektron "Elmi-intellektual baza"sının formalaşdırılması və mövcud elmi informasiyanın mübadiləsini təmin etmək məqsədilə, AMEA elmi müəssisə və təşkilatlarının kitabxanalarına Vahid elektron qeydiyyat sistemi tətbiq edilməsi qərarı verildi, eyni adlı elmi konfrans keçirildi, iştirakçıların yekdil rəyi ilə təşəbbüs dəstəkləndi, konfransdan sonra ümumi təlim və eləcə də MEK-də iş yerlərində hər təşkilat üçün fərdi təlimatlandırmalar aparıldı, təşkilatlara yeni Vahid elektron qeydiyyat cədvəli verildi. Nəticədə AMEA-nın 13 institutunun kitabxanasında yeni qeydiyyat sisteminin tətbiqinə başlanıldı, qalanlarında isə yeni qeydiyyat sisteminin tətbiqinə hazırlıq işləri aparılır.

**11. Milli Rəqəmsal Yaddaş bazasının Azərbaycan hüdudlarından kənarda formalaşan materiallar ilə zənginləşdirilməsi.** Azərbaycanın Macarıstandakı və Polşadakı diplomatik nümayəndəlikləri tərəfindən Azərbaycan ədəbiyyatının tərcüməsi və xaricdə təbliğinə həsr olunmuş "Mədəniyyətlərarası dialoqun gücləndirilməsində Azərbaycan mədəni irsinin təbliğinin rolu" adlı tədbir keçirildi. Azərbaycanın Polşa Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Həsən Həsənovun rəhbərlik etdiyi diplomatik missiya tərəfindən polyakcaya tərcümə edilmiş 200-ə yaxın Azərbaycan ədəbiyyatı nümunələri və Azərbaycanın Macarıstan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Vilayət Quliyevin rəhbərlik etdiyi diplomatik nümayəndəliyin macarcaya tərcümə etdirdiyi 150 adda MEK-ə bağışlanmış Azərbaycan ədəbiyyatı nümunələri sərgidə nümayiş etdirildi, hər kolleksiya üçün elektron kataloq hazırlandı və ümumi e-kataloqa daxil edildi, hər kolleksiya üçün virtual təqdimat hazırlandı, kitablar MEK-in "Sərgi salonu"nda nümayiş etdirildi və təşəbbüs təbliğ olundu. Hər iki diplomatik missiya tərəfindən Macarıstan və Polşada 200-dən artıq məktəb, mədəniyyət mərkəzi və kitabxanalarda görüşlər keçirilməsi, tərcümə edilmiş ədəbiyyatın hədiyyə olunması, müzakirələrin aparılması səsləndirildi. Tədbir Azərbaycanın təbliğinə aid edilən bir sıra ölkə və beynəlxalq əhəmiyyətli tədbirlər sırasında, məs., Bakı Elm Festivalı, Beynəlxalq Humanitar Forum, yubileylər əhəmiyyətinə görə üstünlük təşkil edənlərdən biri hesab olunur. MEK-ə hədiyyə edilmiş materiallar rəqəmsallaşdırılmış və MRY-ə aid edilmişdir.

> ***"Bizim yaddaşımız fərdi yaddaşlardan və icma yaddaşlarından ibarətdir. Bu ikisi biri-birinə sıx bağlıdır. Və tarix bizim icma yaddaşımızdır. Əyər bizim icma yaddaşımız bizdən götürülsə - yenidən yazılsa – biz əsl mahiyyətimizi qorumaq imkanını itirmiş oluruq".***
>
> **Haruki Murakami**

Azərbaycan Respublikasının Los-Anceles şəhərindəki Konsulluq tərəfindən Üzeyir Hacıbəylinin 130 illiyinə və Rəşid Behbudovun 100 illiyinə həsr olunmuş və ABŞ Federal Poçt Xidməti tərəfindən istifadəsinə icazə verilmiş poçt markaları rəqəmsallaşdırılmış, kataloqlaşdırılmış, MRY-a aid edilmiş, MEK-in "Sərgi salonu"nda incəsənət və səfirliklərin fəaliyyətini əks etdirən guşələrdə yerləşdirilmişdir.

Üzeyir Hacıbəylinin "Arşın mal alan" operasının çin dilində rəqəmsal versiyası elektron kataloqa salınmış, MRY-a aid edilmiş və MEK oxucularının diqqətinə çatdırılmışdır.

**12. İnformasiya təqdimatının multiməkan və multiformat rejimində keçirilməsi.** İstənilən mövzuda tədbir keçirilirsə, sərgi hazırlanırsa, MEK fondlarında mühafizə olunan sənədlər fondlardan qaldırılıb sərgilənir, bütün mənbələr e-kataloqa daxil edilir, rəqəmsallaşdırılır, virtual sərgi yaradılır, sərgi salonunda bütün ekranlarda və videodivarda nümayiş etdirilir (ümumilli lider Heydər Əliyev, Əliağa Vahid, Mikayıl Useynov, Bəxtiyar Vahabzadə, Cəfər Cabbarlı, Bəkir Nəbiyev, Vəli Axundov, Səməd Vurğun, Aslan Aslanov) və Youtube-da yerləşdirilir, videoköşklərdən sayt materiallarına çıxış verilir, sərginin mövzusuna aid yeni elektron kataloqdan çıxarış yardımçı vasitə kimi sərgidə təqdim olunur, nümayiş etdirilən material paket şəklində rəqəmsallaşdırılır, Sərgi salonunun ekranlarında eyni zamanda dörd müxtəlif çarx nümayiş etdirilir.

**13. Rəqəmsallaşdırmanın müxtəlif praktiki əhəmiyyətli çeşidlərdə aparılması.** Məqsədindən asılı olaraq MEK-in Rəqəmsallaşdırma bölməsi istənilən sənədin rəqəmsallaşdırılmasını paket şəklində aşağıdakı formatlarda təqdim edir: PDF və Word formatlarda rəqəmsallaşdırılması, bulud serverdə yerləşdirilməsi, müvafiq linkin təqdim olunması, əsərin video formatda vərəqlənməsi, Power Point formatında təqdimatının hazırlanması, tam həcmdə avtomat və manual rejimdə təqdimatı və s.

**14.Vikipedia təlimləri.** Azərbaycanın qədim tarixinin və zəngin mədəniyyətinin, müstəqillik illərində qazanılmış siyasi, iqtisadi, sosial və mədəni nailiyyətlərinin təbliğ edilməsi, ana dilində informasiya resurslarından onlayn istifadə imkanlarının genişləndirilməsi və bu məlumatların sərbəst elektron resurslarda və sosial şəbəkələrdə daha geniş yer almasına nail olmaq məqsədilə "Vikipediyada məqalələrin yerləşdirilməsi" mövzusunda təlimlər silsiləsinə başlanılıb. Təlimlərin əsas məqsədi – elektron ensiklopediyada məlumatların və məqalələrin yaradılması prinsiplərini, qaydalarını və üsullarını öyrətmək, eləcə də Vikipediyada etibarlılıq səviyyəsi yüksək olan məqalə və məlumatların sayının artırmaqdır. AMEA müəssisə və təşkilatları tərəfindən yerləşdirilməsi nəzərdə tutulan materialların spesifikliyini nəzərə alaraq, AMEA-nın 21 təşkilatına hər müəssisəyə 5 gün olmaq şərtilə təlim keçirilmiş, təlimdən sonrakı nəzarət və məsləhətləşmə təmin edilmişdir.

**15. AMEA-nın 15 təsisçisi barədə tanıtım materialı.** AMEA-nın 15 təsisçi – həqiqi üzvü barədə nəfis tərtibatda tanıtım materialı Azərbaycan, ingilis, rus, ərəb və fars dillərində informasiya stendləri hazırlanıb və büstlərin yanında MEK qonaqlarının və istifadəçilərinin diqqətinə təqdim olunur, informasiya 5 dildə Vikipediyada da yerləşdirilib.

**16. AMEA Rəyasət Heyətinin qərarlarına əlavə** olaraq yubileyi AMEA miqyasında qeyd olunan şəxslər – Mikayıl Useynov, Bəxtiyar Vahabzadə, Vəli Axundov, Səməd Vurğun – və "Molla Nəsrəddin" jurnalına aid olan materiallar elektron kataloqa salınmış, rəqəmsallaşdırılmış, virtual təqdimatda hazırlanmış və Sərgi salonunda nümayiş etdirilmişdir.

**17. Azərbaycanda on ən qədim kitab Mərkəzi Elmi Kitabxananın fondlarında aşkar edilmişdir.** Azərbaycanda ən qədim on kitab Mərkəzi Elmi Kitabxananın fondlarında aşkar edilmiş, rəqəmsallaşdırılmış, elektron kataloqa salınmış, ictimaiyyətə təqdim olunmuş, KİV nümayəndələri və araşdırıcıların ciddi marağına səbəb olmuşdur.

**18. Başqa təşəbbüslər.** Diplomatik missiyaların nümayəndələri və beynəlxalq təşkilatlar ilə görüşlər və müzakirələr aparılıb; Mərkəzi Elmi Kitabxananın mərhum direktorlarının xatirə divarı hazırlanıb; alimlərin, incəsənət xadimlərinin, siyasətçilərin, mütəfəkkirlərin müxtəlif dillərdə səsləndirdiyi və müxtəlif dillərə tərcümə olunmuş aforizmlərinin "Kəlamlar" adlı video-təqdimatı hazırlanıb, MEK-in oxucular tərəfdən girişində videodivarda nümayiş etdirilir; kitabxana xidmətləri ikinövbəli rejimdə təqdim olunub; bayram günlərində də oxu zalları oxucuların istifadəsinə verilir; kitabxana xidmətlərindən aktiv istifadə edən və kitabxana həyatında fəal iştirak edən oxucular kitab hədiyyələri ilə fərqləndirilir; yeni daxil olan kitablar barəsində məlumat dərhal saytda yerləşdirilir və

> ***"Deyirlər ki, zaman hər şeyi dəyişir. Lakin həqiqətdə hər şeyi siz özünüz dəyişdirməlisiniz".***
>
> **Andy Warhol**

daim yenilənir; müəssisə və təşkilatlara hədiyyə üçün ayrılan kitabların siyahısı sayta yerləşdirilir və daim yenilənir; Akademiklərin zalında Azərbaycan Respublikasında akkreditə olunmuş və Azərbaycan Respublikasının xarici ölkələrdə çalışan diplomatik missiyalarının güşələri yaradılıb və yeni sənədlərlə zənginləşdirilir; istifadəçilər auditoriyasından könüllü tərəfdaşlar – vikipediyaçılar formalaşdırılıb; xarici kitabxanalardan MEK istifadəçilərinin sorğusuna əsasən beynəlxalq mübadilə nəticəsində sənədlər əldə edilir və istifadəçilərə çatdırılır.

## ÇƏTİNLİKLƏR

1. MEK köçmə prosesini nəzərdə tutulan 2 il müddətinə yox, cəmi 7 aya başa çatdırmış, bu səbəbdən kataloqların nizamlanması kitabxana xidmətlərinin göstərilməsinə paralel olaraq aparılmışdır, bu isə öz növbəsində, xidmətlərin göstərilməsi zamanı oxucu sifarişlərinin araşdırılması və cavablandırılması prosesini ləngidir.

2.MEK-də informasiya mənbələrinin mühafizəsi çiplənmiş kitab və jurnallar, yaddaşına “kitab borcu var” qeydi olan RFİD-kartlara açılmayan eyni tezlikdə çalışan elektron qapılar, informasiya sənədlərinin yalnız MEK ərazisində istifadəsinin mümkünlüyü, müşahidə kameraları, self-çek avadanlığı vasitəsilə həyata keçirilir. Lakin, proqram və avadanlıq təminatının çatışmazlığı mühafizə işinin sistem şəklində qurulmasına maneə yaradır.

3.Brayel əlifbası və audio disklərin olmasına baxmayaraq, görmə qabiliyyəti zəif olan insanlar üçün xidmətlər hələ ki avadanlığın çatışmazlığı səbəbindən tam həcmdə göstərilə bilmir.

4. “Borclu oxucuların veto siyahısı”nın və müvafiq prosedurların olmasına baxmayaraq, istifadəçilər tərəfindən 2014-cü ilə qədər götürülmüş əksər sənədlərin heç də hamısı kitabxanaya təhvil verilməmişdir. Bu, öz növbəsində cavablandırılmamış sorğuların siyahısını açıq saxlayır.

> ***“Kitablarınızı heç kimə verməyin - əks halda siz onları heç vaxt görməyəcəksiniz. Mənim kitabxanamda yalnız mənim kimdənsə götürdüyüm kitablar qalıb”.***
>
> **Anatol Frans**

5. Vikipediya üzrə təlimdən sonra iştirakçıların Vikipediyadakı istifadəçi adlarını (hesab ünvanları) dəyişməsi, öz istifadəçi səhifəsini silməsi və yaxud Vikipediyadakı “Fəaliyyətim” bölməsində yaratdığı məqalələrin adlarını qeyd etməməsi səbəbindən hər iştirakçının fəaliyyətini qeydə almaq və təlimlərin effektivliyini tam şəkildə müşahidə etməyə imkan vermir.

## PERSPEKTİVDƏ NƏZƏRDƏ TUTULAN İŞLƏR

- Üçnövbəli xidmətə keçid.
- Media ilə gündəlik kommunikasiyanın onlayn avtomat rejimə keçirilməsi.
- VİS-in müəyyən komponentlərinin sayt ilə sinxronlaşdırılması.
- Kitabxana həyatından MEK-in saytına canlı yayımlanma.
- Elekron kataloqun saytda yerləşdirilməsi və on-line rejimdə yenilənməsi.
- Rəqəmsal bazanın MEK üzvlərinin şəxsi və ya ofis kabinetlərindən əlçatanlığının təmin edilməsi.
- Kommunikasiyanın daha əlçatan və sürətli olması.
